# Ermənistan özü qurduğu tələyə düşüb

## Qarabağda "humanitar böhran" yaratmaq istəyi fiaskoya uğrayıb

Ermənilərin qurduqları bütün planlar öz əleyhlərinə işləyir. Azərbaycana məlumat vermədən və razılıq əldə olunmadan ölkəmizin sərhədlərinə göndərilmiş avtomobil konvoyu günlərdir ki, sərhəddə dayanıb. Azərbaycanın mövqeyi isə dəyişməz olaraq qalır. Ölkəmiz böyükhəcmli daşımalar üçün onlara konkret yol göstərib: separatçıların beton bloklarla öz əlləri ilə bağladıqları Ağdam-Xankəndi yolunu! İstəsələr "humanıtar yardım"ı bu yolla Xankəndiyə çatdıra bilərlər. Özü də ermənilərin daha çox istinad etdikləri beynəlxalq hüquq normalarına uyğun olaraq. Əlbəttə ki, yüklərin daşınması gömrük normalarının şərtləri ilə qanunauyğun formada ciddi yoxlandıqdan sonra ünvanına çatdırıla bilər.

N.Paşinyan hökuməti elə zənn edirdi ki, avtomobil konvoyunu sərhədimizə göndərib yalan məlumatlarla, arxalarında duran bəzi dövlətlərin vasitəçiliyi ilə Azərbaycana təzyiq edib, beynəlxalq aləmdə erməniləri blokadada saxlayan "zalım azərbaycanlı" obrazı yaradıb öz istəklərinə nail ola biləcəklər. Hər şey əksinə oldu. Azərbaycanın göstərdiyi qətiyyət, prinsipiallıq Paşinyan hakimiyyətini çətin duruma saldı. Artıq Hayastanda da, Qarabağda da anlayırlar ki, Azərbaycanla zorla, güclə, təzyiq yolu ilə danışmaq mümkün deyil.

Bu faktdır ki, Ermənistan daxili xaosa doğru sürüklənir. Terrorçu ölkədə hakimiyyət böhranı baş verməkdədir. Revanşistlər Paşinyan hakimiyyətinin buraxdığı səhvlərdən istifadə edib təşəbbüsü ələ almaq daha fəal mübarizəyə keçməyə çalışırlar. Görünən budur ki, haylar "humanitar böhran" avantürasına gedəndə Azərbaycanın tutacağı mövqeyi hesablamaqda yenə naşılıq ediblər. Laçın yoluna dəhliz "statusu" almaq istəyən N.Paşinyan qaş düzəltdiyi yerdə vurub göz çıxarıb. Belə olan halda Nikol Paşinyanın düşdüyü durumu təsəvvür etmək o qədər də çətin deyil. Başqa çıxış yolu qalmayan Nikol Paşinyan "humanitar yardım" dolu avtomobil konvoyunu "fırladıb" yenidən Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yolu ilə aparacaq. Bu da Ermənistan hökumətinin və onlara dəm tutanların gücsüzlüyünün bir daha nümayişi olacaqdır.

Bu geridönmə əməliyyatı onsuz da ağır durumda olan Paşinyan hakimiyyətinə ciddi siyasi hücum vəd edir. Təbii ki, bunu Paşinyan hökuməti də anlayır. Amma N.Paşinyanın başqa çıxış yolu yoxdur. Erməninin adama işi düşəndə "dayı" deməsi artıq dünyaya bəllidir. Ermənistan mətbuatının yazdığına görə, Nikol özünü və ona himayədarlıq edən dostlarını düşdüyü vəziyyətdən çıxarmaq üçün Azərbaycan hakimiyyətinə müraciət edərək yüklərin Laçın yolu ilə keçməsinə razılıq verilməsini xahiş edib. Eyni zamanda yük barədə məlumatların ən xırda detalına qədər Bakıya çatdırıldığı qeyd edilir. Amma buna baxmayaraq, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır:

"Humanitar yardım" konvoyu Bakının dediyi kimi, Laçın yolu ilə deyil, ciddi yoxlama və nəzarət şərti ilə Ağdam-Xankəndi marşrutu ilə daşınmalıdır. Artıq çənbər daralıb. Ermənistanın "humanitar böhran" şousu öz başına bəla olub. İndi bunu təkcə Ermənistanda deyil, Qarabağda separatçı rejimin rəhbərləri də anlayırlar ki, rəsmi İrəvan bundan sonra Azərbaycanın geopolitik iradəsi qarşısında acizdir. Rəsmi Bakı şərtləri müəyyən edir, Ermənistan isə onların icrasına məhkum durumdadır. Bu səbəbdən də Ermənistanın və Xankəndinin Azərbaycanın şərtlərini qəbul etməkdən başqa çarələri qalmayıb. Əgər erməni azlığı Qarabağda qalıb yaşamaq istəyirsə, Azərbaycanın reinteqrasiya haqqında təklifini qəbul etməlidir.

Ermənistanın hiyləsinin işləmədiyini, onları himayə edən dövlətlərin, beynəlxalq təşkilatların hüquqazidd təkliflərinin, təzyiqlərinin keçərsiz olduğunu hiss edən Qarabağda yaşayan erməni icmasının Azərbaycanın reinteqrasiya haqqında təklifinə münasibəti loyallaşmaqdadır. Artıq separatçıların başçılarından bəziləri Azərbaycanın yaratdığı reallıqları dərk edib qiymətləndirməyə təşəbbüs də edirlər. Qondarma rejimin sabiq "müdafiə naziri", "artsax hərəkatı"nın fəallarından olan Samvel Babayan bu günlər BBC-yə verdiyi müsahibədə Azərbaycanla gələcək münasibətlərdən danışarkən deyib: "Əgər Əsgəran və Ağdam sərhədində böyük bir bazar yaradılsa, mallar müvafiq laborator yoxlamalardan keçdikdən sonra Azərbaycan şirkətləri ilə əlaqə qurar və topdansatışla məşğul olanlar gedib o bazardan mal götürüb mağazalara verərlər, mağazalar işləyər. İlk mərhələdə mən təxminən belə görürəm".

Hadisələrin gedişi deməyə əsas verir ki, yaxın gələcəkdə biz yeni bir tarixi hadisəyə şahidlik edəcəyik. Reallıqları dərk edən ermənilərin Azərbaycan vətəndaşlığını qəbul edəcəkləri gün yaxınlaşmaqdadır. Əgər bu gün Samvel Babayan gələcək münasibətləri "təhlil" edib forma axtarırsa, Azərbaycan Prezidenti onlara düzgün yolu çoxdan göstərib. Artıq başqa yol yoxdur.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 13 avqust.- S.2.